# Qarşılıqlı səfərlər və sıx təmaslar münasibətlərin daha da möhkəmləndirilməsi üçün geniş imkanlar yaradır



Özbəkistan Respublikasında işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova bu ölkənin Prezidenti Şavkat Mirziyoyevlə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səmimi qəbula görə dərin minnətdarlığını bildirən Sahibə Qafarova Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını Özbəkistanın dövlət başçısına çatdırıb.

Görüşdə ölkələrimiz arasında münasibətlərin hazırkı yüksək səviyyəsi qeyd olunaraq əlaqələrimizin inkişafında iki ölkənin prezidentlərinin xüsusi rolu vurğulanıb. Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin iyununda Özbəkistana tarixi səfərinin səmərəli nəticələri qeyd olunub, bu səfərin münasibətlərin daha da inkişafında yeni bir mərhələ təşkil etdiyi bildirilib. Qeyd olunub ki, yüksəksəviyyəli qarşılıqlı səfərlər və sıx təmaslar iki dost və qardaş ölkə arasında münasibətlərin daha da möhkəmləndirilməsi üçün geniş imkanlar yaradır.

Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev onun da salamlarını və xoş arzularını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

O, iki ölkə arasında münasibətlərin inkişafında parlamentlərarası əməkdaşlığın rolunu qeyd edərək bu istiqamətdə əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

Söhbətdə qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Görüşdən sonra Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistan televiziyasına müsahibə verib. Parlamentin Sədri müsahibədə Azərbaycan nümayəndə heyətinin Qadın Parlament Sədrlərinin 14-cü Sammitində iştirakı, Azərbaycan-Özbəkistan əlaqələrinin bu günü və gələcək inkişaf perspektivləri barədə fikirlərini bölüşüb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 10 sentyabr.- S.3.